# "ERMƏNİ MƏSƏLƏSİ"nin YAYILMASINDA ERMƏNİ KİLSƏSİNİN ROLU

**Z.C.ƏMRAHOV**
***Bakı Dövlət Universitetinin***
***ziyad 1980@mail.ru***

Tarixi tədqiqatlar göstərir ki, XIX əsrin II yarısından başlayaraq Osmanlı imperiyasını erməni məsələsi narahat etməyə başlayır. Çağdaş türk tarixçilərinə görə «erməni məsələsi»nin meydana çıxması tamamilə imperializmdən qaynaqlanır. Başqa bir ifadə ilə «erməni məsələsi» imperialist böyük dövlətlərin Osmanlı imperatorluğu üzərindəki imperialist məqsədlərini gerçəkləşdirmək üçün ortalığa atdıqları süni bir siyasətidir. Yəni bu süni məsələnin səbəbləri geniş ölçüdə imperializm və onun gətirdiyi «Şərq məsələsi»ndə araşdırılmalıdır [14, 19].

Ankarada Erməni Araşdırmaları İnstitutunun 3 aylıq «Tarix, Siyasət və Beynəlxalq Əlaqələr» [4] adlı dərgisi erməni məsələsində Eçmiədzin kilsəsinin müstəsna rol oynadığını aydın anlamaq üçün çox əhəmiyyətlidir. «Ermənilərin Rusiyaya bağlanması və oradan dəstək umması Rusiyanın Qafqaz bölgəsində gerçəkləşdirdikləri ilk səfərlərdən başlayaraq yetişmiş və getdikcə artmışdır. Bu vəziyyət Rusiyanın Qafqaza və Şərqi Anadoluya istiqamətlənmiş fəaliyyətində həm siyasi, həm də hərbi-strateji xətti müəyyənləşdirməsinə təsir etmişdir. 20 iyun 1804-cü ildə İranla ilk savaşdan sonra İran Şahının bölgədəki nüfuzu zəifləmiş və Rusiya Eçmiədzinlə qonşu olmuşdur. Ermənilər bu tarixdən etibarən aralarında irq və məzhəb fərqi olmasına baxmayaraq, Rusiyaya qarşı olan maraqlarını gizlətməmişdilər» [15, 49].

Müəllifin belə izahatından sonra araşdırılan hadisələrlə bağlı düzgün nəticə çıxarmaq o qədər də çətin olmur və məhz bundan sonra Rusiyanın Qafqazda yürütdüyü müstəmləkəçi siyasəti barədə oxuyuruq: «Rusiya Qafqazda yürütdüyü müstəmləkəçi siyasətin davamı olaraq Bizans dönəmindən bu yana tarixi Azərbaycan torpaqlarında dağınıq halda olan erməni əhalinin müqəddəs saydığı Eçmiədzin kilsəsinin yerləşdiyi torpaqları İrəvan Xanlığının hakimiyyətindən çıxararaq (əhalinin 78,3%-i müsəlman olduğu halda) «Ermənistan Vilayəti»nə çevrilməsini əsas hədəfə çevirdi» [15, 50, 1].

Göründüyü kimi, müəllif mübarizə cəbhəsində Rusiyanın fəal rol oynadığını qeyd edir və Peterburqun hadisələrə yanaşma tərzini daha geniş açıqlayaraq yazır: «Rus İncil Cəmiyyəti 1815-ci ildə Peterburqda erməni dilində 15 min incil çap elətdirdi. Bunula kifayətlənməyən Cəmiyyət daha sonra Osmanlı ermənilərinin böyük əksəriyyətinin türkcə danışdığını nəzərə alaraq 1822-ci ildə türk dilində incil çap elətdirib ermənilərə payladı. Yenə həmin il Rus hökumətinin Eçmiədzin kilsəsinə göstərdiyi yaxınlığı bəhanə edən Katolikos Efraim bölgədə cərəyan edən

Osmanlı-İran savaşında Rusiyanın qorunmasına sığınaraq barışıq imzalanana qədər Çarın himayəsi altında qaldı. Bu bağlılıqdan məmnun qalan Rusiya hədəfinə yetişmək üçün Qafqaz və digər şərq bölgələrində yaşayan ermənilərə qarşı fəaliyyətlərini daha da yaxınlaşdırdı» [15, 50].

D.Kılcın İran ermənilərinin bu proseslərdə fəal rol oynadığını göstərmək cəhdi də diqqəti cəlb edir: «İran ermənilərinin Rusiya himayəsinə girmək istəkləri XIX əsrin ilk illərində bölgəni işğal etmək arzusunda olan Rus ordusunu hərəkətə gətirdi. Araz vadisi boyunca irəliləyən rus orduları erməni toplumu üçün müqəddəs sayılan Eçmiədzin şəhərini də özündə birləşdirən İrəvan bölgəsini işğal etdi» [15, 50].

Yeri gəlmişkən, bir məsələni də qeyd edək ki, Katolikos Nerses Aşdaragesi həmin ərəfədə – 1827-ci ilin qışında erməni camaatına bu ifadələrlə müraciət etmişdi: «Ararat dünyasının və erməni millətinin rəğbətini qazanacağımız zaman əvvəlki müstəqilliyimizin yenidən qurulması yetişəcək. Erməni qəhrəmanları, ayağa qalxın, iranlıların işini bitirin. Ağrı Dağı sevindirin. Daha bir dəfə vətən torpaqlarını qanlarınızla boyayın və sonra müstəqil olaraq yaşayın» [21, 757].

Nəhayət, müəllif Qafqazda Rusiyanın şəriksiz rəqibə çevrilməsini belə təsvir edir: «Rus-İran savaşında İran erməniləri İrana qarşı Rus ordusu sıralarında döyüşdükləri kimi rus əsgərlərinə də başçılıq etdilər. Beləcə rus ordusu Urmiya və Ərdəbili ələ keçirdi. Rusiya ilə İran arasında Türkmənçay müqaviləsinin imzalanması ilə bölgədə yaşayan Ermənilər bir il içində mal və mülklərini sataraq İrəvan bölgəsinə köçürüldü. Beləliklə də, Rusiya İrəvan Xanlığını Ermənistan Vilayətinə çevirmə planlarını da həyata keçirmiş oldu. İmzalanmış müqavilənin XV maddəsinə görə könüllü və ya zorla 40 min erməni köçməyə məcbur edildi. Köçürülən ermənilər Rus hökuməti tərəfindən əksəriyyəti müsəlman olan İrəvan bölgəsində yerləşdirildi. Çar I Nikolay bu davranışı ilə tarixi coğrafiyaya nüfuz edərək bölgədəki demoqrafik vəziyyəti xristianların lehinə dəyişməyi qərara almışdı. Bu hadisələrin sonu olaraq Rusiyanın Osmanlı təbəəsi olan Qriqoryan erməniləri üzərindəki təsir və təzyiq imkanları xeyli yaxşılaşdı. Beləliklə, Şərq və Qərb türklüyünün əlaqəsi kəsiləcək və süni bir Ermənistan yaranacaqdı. Bütün bunlar isə erməni kilsələri içərisində ən ali məqam kimi tanınan Eçmiədzinin rus sərhədlərinə qatılaraq Rusiyanın əmr və idarəsi altına girməsilə başlamış oldu» [15, 51].

Problemin Türkiyə tarixşünaslığını təhlil edərkən prof. S.Çöhçenin Ankarada 2003-cü ildə nəşr olunmuş məqaləsi [12] üzərində xüsusi dayanmaq lazımdır. Müəllif yazır: «Osmanlı dövlətinin tam mənası ilə dünya dövləti olduğu bir vaxtda Eçmiyədzin kilsəsinin istiqlal axtarışlarının müvəffəqiyyətsizliklə nəticələnməsi təbii idi. Amma bu, ermənilərin siyasiləşmə cəhdlərindən, xüsusilə Papalığın onları katolikləşdirmə istəyindən vaz keçməsi üçün kifayət etməmiş, əksinə, Avropada gedən müasirləşmə ilə əlaqədar yaxınlaşan münasibətləri daha da artırmışdır. Nəhayət, 1604-cü ildə İrəvan ilə birlikdə Eçmiədzin kilsəsinin Səfəvi hakimiyyətinə keçməsi və həmin ildə imzalanan Türk-fransız müqaviləsi ilə katoliklərə verilən imtiyazlar erməni ictimaiyyətində bir canlanma yaratmışdır.

S.Çöhçe belə hesab edir ki, Fransa öz gələcək inkişafını Aralıq dənizi ilə bağlılığını dərk edərək erməni ictimaiyyətinin katolikləşdirmə meyllərinə üstünlük vermişdir: «XVII yüzilliyin ilk yarısında ermənilər Ərzurum və Şərqi Anadolu bölgəsindəki əhəmiyyətli mərkəzlərdən İrana istiqamətlənmiş ticarət nöqtələrinə yiyələnmişdilər. 1580-ci ildə ingilis-

lərin Osmanlı dövlətində ticarət imtiyazlarını əldə etməsini görən Fransa XIV Lüdovik dövründən etibarən gələcəyini daha çox Aralıq dənizi ilə əlaqədə görməyə başlamışdı. Onun üçün bölgədəki inkişafı öz məqsədləri naminə istiqamətləndirib erməni ictimaiyyəti içərisində katolikləşdirmə təbliğatına start verdi» [12, 43].

Erməni məsələsi ilə bağlı diqqəti çəkən məqamlardan biri də erməni toplumu arasında yayılan din və milli xüsusiyyətləri özündə əks etdirən ədəbiyyatın yayılması olmuşdur. Ankarada 8-9 mart 1990-cı ildə keçirilən Simpoziumun materiallarında yazılır ki, ədəbiyyat, tarix və dini işlərin tərcüməsi ilə başlayan əsərlər bir qonorar halında erməni toplumuna həm milli, həm də elmi nəşrləri bir yerdə izləmək imkanı vermişdir [11, 70]. İstanbulda 1997-ci ildə işıq üzü görən «Osmanlı imperatorluğunda reform I, 1856-1876» adlı əsərdə [3] oxuyuruq: «erməni toplumu mədəniyyət baxımından bir renessans dövrünə qədəm qoyarkən, Mixitar monastrında qorunub saxlanılan klassik erməni elmləri inkişaf etdirilərək müasir bir yazı dili qələmə alınan ədəbi əsərlər erməni millətçiliyinin də yüksəlməsində təsirsiz ötüşməmişdir» [3, 143].

Osmanlı imperiyasında «erməni məsələsi» haqqında ətraflı bəhs edən müəlliflərdən biri də A.Süslüdür. Müəllifin 243 səhifəlik tədqiqat işi «Ermeniler ve 1915-ci il Tehcir Olayı» adlanır. Ön söz, giriş, dörd bölüm, nəticə və ədəbiyyat siyahısından ibarət olan bu əsər Osmanlı dövlətində islahat fərmanlarından birinci dünya müharibəsinədək baş verən hadisələri əhatə edir. Əsərin «Teşkilatlanma-İsyanlar ve İhanetler» adlı II bölümündə müəllif Patrikxana və kilsələrin rolu haqqında erməni tarixçilərinə istinadən yazır: «Erməni milləti ilə erməni kilsəsi o qədər bir-birinə yaxındır ki, biri olmadan digərini düşünmək olmaz. Erməni millətinin kilsə tərəfindən yaradılan ruhu yenidən dünyaya gəlmək üçün yaşatdığı ruhdur. Erməni patriarxları və kilsələri ermənilərin dini olduğu qədər də dünyəvi həyatlarını qaydaya salan, onalrı birləşdirib bir çox təhlükələrdən qoruyan, bəzən də siyasi və idarəedici funksiyaları daşıyan, lazımi məqamlarda silahlandırıb onları təhlükələrin qucağına atan müəssisələr olmuşlar» [20, 34]. Müəllif daha sonra yazır: «XVIII yüzilliyin əvvəllərindən etbarən missioner fəaliyyətləri və qərblilərin kilsələr vasitəsilə erməniləri öz məzhəblərinə çəkmə istəkləri erməni kilsələrində dini söhbətlərlə yanaşı, milli mövzuda söhbətlər də gündəmdə özünə hüquq qazanmış, hətta ilk vaxtlar təsirsiz ötüşsə də, xristian müsəlman düşmənçiliyi aşılanmağa başlanmışdır» [20, 34]. Göründüyü kimi, erməni məsələsinin müəyyən edilmiş plan üzrə davam etdirilməsinə çalışan erməni kilsəsinin iç üzü və «Osmanlı imperiyasında türk təhlükəsi»nin mövcudluğuna görə erməni-rus və erməni-qərb yaxınlaşmasını iddia edən erməni tarixçilərinin əsl siması bir daha məlum olur.

Nəhayət, əsərin adı çəkilən bölməsində diqqəti cəlb edən və ermənilərin dini cəhətdən təşlikatlanmasında xüsusi rol oynayan erməni patriklərinin fəaliyyətinin qeyd edilməsidir. Əslində, erməni məsələsində erməni kilsəsinin oynadığı rolu Rusiya və digər Avropa dövlətlərinin Osmanlı İmperiyasında və Qafqazda toqquşan maraqları prizmasından qiymətləndirmək lazımdır. Düzdür, 1798-ci ildə Fransanın Misiri işğal etməsindən sonra Rusiya ilə Sultan hökuməti arasında hiss ediləcək yaxınlaşma olmuşdur. Ancaq unutmaq olmaz ki, 1864-cü ildən Rusiyanı İstanbulda təmsil edən İqnatyevə görə, «Osmanlı imperatorluğu üzərində tarixi rus ehtiraslarının gerçəkləşməsi üçün hər şeydən öncə Fransanın

məğlubiyyəti ilə Osmanlı imperatorluğunda tac-taxtına Rusiya varis olmalı idi» [17, 67] deməsi məkrli rus planlarından xəbər verirdi. Müəllifin fikirlərinə görə, 1774-cü il Kiçik Qaynarca və 1829-cu il Ədirnə Andlaşmaları ilə ruslar Osmanlı dövlətindəki ortodoksluğun hamiliyini ələ keçirmişdir və döyüşdə qarşı-qarşıya gələn ermənilər və eləcə də, din adamları ruslardan istifadə edərək hər vasitə ilə Osmanlı erməniləri və kilsələrində «fəsadlar» törətməyə başlamışlar. Bunun ilk meyvəsi erməni din adamı, Katolikos Hovsep Arqotyan tərəfindən 1799-cu ildə layihəsi cızılmış «Erməni Ararat Krallığı» olmuşdur [20, 35]. Göründüyü kimi, Böyük Dövlətlərin Osmanlı İmperiyasında oynadığı ikili oyunlar tarixi amansızlığı ilə bu gün də davam etməkdədir. Erməni patriki M.Hrimyanın fəaliyyətinə toxunan müəllif yazır: «Vanda bir monastrda mətbəə quran Hrimyan 1857-ci ildən etibarən erməni müstəqilliyini güdən «Van qartalı», «Muş qartalı» kimi adlar altında qəzetlər çıxarmağa başlamış, erməni terror şəbəkələrinin azğınlığını ört-basdır edərək, adı çəkilən vilayətlərdə ermənilərə edilən zülm və təzyiqlərdən dəm vuran məqalələr yaymağa başlamışdır. Digər tərəfdən ətrafına topladığı erməni keşiş və gənclərinə erməni mədəniyyətilə bağlı dərslər verdirmişdir. 1869-cu ildə Erməni Patrikliyinə seçiləndən sonra dini vəzifəsini bir tərəfə buraxaraq siyasi işlərlə məşğul olmağa başlamışdır. Rus-türk savaşı sona çatan kimi Yeşilköy ətrafına gələn Böyük Nikolayı ziyarətə gedən Patrikana heyətində özünə yer almışdır» [20, 36]. Müəllifin hadisələrə ədalətli münasibətindən sonra oxuyuruq: «Hrimyan 1885-ci ildə Eçmiədzin Katolikosu seçildi. Patrikliyi dövründə Erməni Milləti Nizamnaməsinin hüquqlarını genişləndirib Şərqi Anadoludakı ermənilər lehinə yeni imtiyazlar qopartmaq üçün 1872-ci ilin əvvəlində hazırlamış olduğu bir bəyannaməni Osmanlı hökumətinə təqdim etdi» [20, 36].

A.Süslünün Osmanlı Erməni Patriarxı İzmirliyanın fəaliyyətləri haqqında verdiyi məlumatlar da maraq doğurur. Müəllif yazır: «İlk baxışdan haqq tərəfdarı fikrini canlandıran Patriarx Mateos İzmirliyan İstanbuldakı Avropa elçiləri, digər tərəfdən də Yunanıstandakı kilsələr, xüsusilə də Eçmiədzin Katolikosluğu ilə ərazidəki islahatları bəhanə gətirərək 1895-ci ildə sürətlənən üsyan hərəkətlərini idarə etmişdir» [20, 38]. Müəllif erməni tarixçisi Kaprielyana istinadən daha sonra yazır ki, İstanbul Erməni Patriarxı İzmirliyan aramsız və həddindən artıq aktıv idi. O, ermənilər arasında görünməmiş bir dəstəyə sahib idi. İzmirliyan ermənilərin vəziyyətlərini və həyəcanlarını əks etdirən bir nota hazırlayaraq Sultan hökumətinə göndərmiş, eyni zamanda islahatların həyata keçirilməsini gecikdirməməyi, əks təqdirdə ermənilərin baş verən üsyanlara cavbdeh olmayacaqlarını bildirmişdi [20, 38].

Birinci dünya müharibəsi illərində İstanbul Erməni Patriarxlığı və Eçmiədzin kilsəsinin iş birliyindən söz açan müəllif yazır: «Səfərbərliyin elan edilməsi ilə Osmanlı dövlətindəki ermənilərin böyük bir qismi Rusiya, digər qismi isə Fransa və İngiltərənin tərəfində olduqlarını bəyan etdilər. Beləliklə, Osmanlı ordusuna qarşı vuruşan yeni bir cəbhə yaranmışdır ki, bu da **«erməni cəbhəsi»** idi» [20, 39]. Müəllif daha sonra qurulacaq müstəqil Ermənistan dövlətinin baş naziri olmuş Kaçaznuninin 1923-cü ildə Bükreşdə keçirilmiş Daşnak Konqresində söylədikləri etirafı qeyd edərək yazır: «1914-cü ilin sonlarında böyük bir həvəslə Qafqazda qiyamçı erməni dəstələri təşkil edilməyə başlandı. Bir neçə həftə əvvəl Ərzurumda keçirilən «Ümumi Konqresin» qərarlarının əksi-

nə olaraq, Daşnak Erməni İnqilabçılar Federasiyası bu dəstələrin təşəkkülünə və Türkiyəyə qarşı istənilən hərəkata çox fəal surətdə qoşulacaqlarını bildirmişdir» [20, 39]. Maraqlıdır ki, Türkiyə Genelkurmay Başkanlığının arxivlərində saxlanılan materiallarda hələ 1907-ci ildə Türkiyə ilə Rusiya arasında belə hal baş verəcəyi təqdirdə daşnak qüvvələri yekdillik göstərəcəklərini, müharibə olarsa, Türkiyəni sadiq vətəndaşları kimi dəstəkləyəcəklərini bildirmişdilər [13, dos.1580].

Qeyd olunan arxiv sənədlərində daha sonra yazılır: «Ancaq Türkiyə müharibəyə qoşulan kimi, daşnakların Türkiyə şöbəsi Türkiyəyə olan sədaqət vədlərini unudub, fəaliyyətlərini Rus hökumətinin mənfəətlərinə görə nizamladılar. Ərzurum Konqresinin qərarları tamamən unudulmuş və Qafqaz cəbhəsinə türklərlə vuruşmaq üçün könüllülər dəvət edilmişdi. Osmanlı dövləti səfərbərlik elan edən kimi Eşmiədzin Katolikosu Vorontsov Daşkova 5 avqust 1914-cü ildə bir məktub göndərmiş və ermənilər haqqında bunları yazmışdır: «Sizi inandıra bilərəm ki, İstanbul Patriarxlığından və Erməni Məclisindən aldığım kəşfiyyat məlumatları Türkiyəni bu gün idarə edən hökumətin sağlam təməllərə dayanmadığı qənaətindədir. Buna görə də, hökumətin ermənilərin vəziyyəti ilə bağlı hər hansı islahatı keçirəcəyi və bunun uzunömürlü olacağı şübhə altındadır. Həm mənim, həm də Türkiyə ermənilərinin adından Rusiyadakı erməni camaatına böyük bağlılıq və sədaqətlərini çatdırmağınızı, eyni zamanda Türkiyə ermənilərinin bu ümidlərini Çarın yanında müdafiə etməyinizi ərz və rica edirəm».

Bəhs olunan problemlə bağlı Türkiyə tarixçisi M.Sarayın da tədqiqatları olduqca əhəmiyyət daşımaqdadır. Müəllif yazır ki, Çar I Pyotrun 1715-ci ildə İrana göndərdiyi elçi A.Volınski bölgədəki xristianlar haqqında məlumat toplayaraq bir il sonra Katolikos Yessaini xristianları İslam idarəçiliyindən qurtarmaq üçün Rusiyaya dəvət etmək haqqında görüşlər keçirməli idi [18, 7]. M.Saray digər tədqiqat işində [19] də Rusiyanın regionda yürütdüyü siyasətin əsl məqsədlərini aşağıdakı kimi göstərmişdir: «Eçmiədzin kilsəsi vasitəsilə Osmanlı ermənilərini idarə edən Rusiyanın hədəfinin ikinci məqsədi Şərqi Anadoludan Bəsrəyə və ya Çuxurovaya uzanan və öz nəzarəti altında olan bir Ermənistan qurmaqdır. Rusiya erməniləri təhrik edib isti dənizlərə çıxma imkanı axtararkən, bu vəziyyəti seyr edən ingilislərin müdaxiləsi ilə hadisələrin axarı dəyişdi» [19, 128]. Görünür ki, müəllif burada hadisələrin gedişinin dəyişməsini yuxarıda qeyd etdiyimiz kimi, ermənilərin Rusiyanın yardımlarından imtinaya işarə etməsi ilə əlaqələndirməyə çalışmışdır.

Türkiyə tarixşünaslığında, xüsusilə də arxiv sənədlərində XIX əsrin sonlarına doğru Şərqi Anadoluda Rusiya-erməni münasibətlərinin soyuqlaşması haqqında da geniş məlumatlar vardır. Orada yazılır: «Rus çarı II Aleksandr 1881-ci ildə bir qatil tərəfindən öldürüləndən sonra Rusiyanın Şərqi Anadolu siyasətindəki dəyişikliklər daha da müəyyənləşdi. Rusiya Osmanlı erməniləri lehinə islahat keçirilməsi ilə maraqlanmaqdan vaz keçdi. Elə bu üzdən 1883-cü ildən etibarən hakimiyyəti altında olan ermənilərə qarşı münasibəti sərtləşdirdi. Belə ki, öz ərazisindəki ermənilərin daha əvvəlki vaxtlarda olduğu kimi Osmanlı erməniləri ilə münasibətlərinə qadağa qoydu və nəhayət 1885-ci ildə bu topluma aid bütün dini məktəbləri bağladı» [5, dos. no:11, iç no: 70-6]. Orada daha sonra yazılır: «Erməni məsələsində İngiltərənin təşəbbüsü ələ keçirməsi və digər tərəfdən Balkanlarda yeni ortaya çıxan Rumıniya və

Bolqarıstanın güddüyü siyasət Rusiyanın ümidlərini puç etdi. Bütün bunlar Rusiyanın erməni toplumu üzərindəki siyasətində mühüm bir dəyişiklik aparmasına səbəb oldu» [6, dos.no:14, iç no: 70]. Bölgədə yaranmış vəziyyəti Rusiyanın xarici işlər naziri Lobanov «biz Qərbdəki səhvlərimizi Şərqdə təkrar etməməyimiz üçün bir Erməni Bolqarıstanı istəmirik» deyə qiymətləndirmişdir».

Arxiv sənədlərindən o da məlum olur ki, Rusiyanın Şərqi Anadolu siyasəti bu dövrdə «Rus hüdudlarında ermənisiz Ermənistan» [7, dos. no: 26, iç no: 5, evrak no: 129] şəklində ifadə edilmişdir. Sənəddə daha sonra yazılır: «Hətta son vaxtlar Qafqaz hüdudlarına sığınmış Osmanlı vətəndaşları olan ermənilərin nəzarət altına alınması üçün Osmanlı hökumətinə gizli vəd belə etdi» [8, dos. no: 26, iç no: 5, evrak no: 130].

Nəhayət, arxiv sənədləri bölgədə XIX əsrin əvvəllərindən sonuna doğru dəyişən demoqrafiq vəziyyət haqqında olduqca maraqlı məlumatlar verir: «Rusiya tərəfindən həyata keçirilən layihə nəticəsində bölgədə demoqrafiq vəziyyət ermənilərin lehinə dəyişməyə başlamışdı. 1823-cü ildə Qarabağ əhalisinin 8,4%-i erməni olduğu halda, bu rəqəm 1832-ci ildə 34,8%-ə, 1897-ci ildə isə aparılan siyahıya almaya görə 53%-ə çatmışdır. Eçmiədzin kilsəsi ətrafında erməni əhalisinin getdikcə çoxalması o günə qədər müsəlmanların yaşadığı coğrafiyanın xristianlaşmasına səbəb olmuşdur» [9, dos. no: 12-s-1308, iç no: 1, evrak no: 239/44].

Eçmiədzin Katolikosunun siyasi oyunları barədə Böyük Osmanlı Arxivinin sənədində deyilir: «Rusiyanın Şərqi Anadolu bölgəsindəki mənfəətləri Osmanlı ermənilərinin tam və yarı müstəqil siyasi bir varlıq kimi görülmələrinə əsla razı olmayan bir siyasət izləmək məcburiyyətində yekunlaşdı. Bundan bir qədər əvvəl Rostova gələrək Rus İmperatoru və imperatriçəsini ziyarət üçün müraciət edən Eçmiədzin Katolikosuna erməni məsələsi yekunlaşanadək qəbul edilməyəcəyi bildirildi» [10, iç no: 17, zarf: 1312].

Lakin hadisələrin sonrakı gedişi bir daha göstərdi ki, Rusiyanın bu üzdəniraq küskünlüyü müvəqqəti bir hal olub, imperialist məqsədləri gerçəkləşdirmək yolunda atılmış növbəti addım idi. «Şərqi Anadoluda Ermeni Sorunu (1900-1920)» adlı məqalələr toplusunda [16] bu barədə oxuyuruq: "Daxili siyasətdə Çar rejiminin yumşalması ilə Eçmiədzin kilsəsinin daha əvvəl müsadirə olunmuş malları 1903-cü ildə geri qaytarıldı. Bu qərarla yumşalan erməni-rus münasibətləri Trablisqərbin işğalı və Balkan müharibəsinin Osmanlı dövlətini çox sarsıtdığı bir vaxtda yenidən hərəkətə keçdi. Başda Katolikos olmaqla Patrikxana və ətrafında olan rus yönümlü ermənilər tərəfindən Rusiyanın müdaxiləsi ilə şərq vilayətlərində islahat məsələsi də bu müddətdə təkrar olaraq meydana çıxdı. Rusiya Eçmiədzin Kilsəsi vasitəsilə həyata keçirməyə çalışdığı 200 illik siyasətini qısa bir vaxtdan sonra yenidən başladı. Belə bir vaxtda katolikos Sürenyan verilən əmrlərə tabe olan əvəzedilməz şəxs idi. Peterburqa edilən səfəri zamanı toplumun dini problemlərini bir yana ataraq daha çox siyasi məsələlərin mövzusuna girişmiş, bunu tamamilə hökmdarın ixtiyarına buraxmışdır. Yaxın Şərq siyasətinin şərtləri yenə də Rusiyanı Osmanlı ermənilərini himayəsi altına almağa sürükləyirdi» [16, 232].

Beləliklə, problemlə bağlı dövriyyəyə cəlb olunan əsərlərin təhlili göstərir ki, XIX əsrin II yarısından etibarən Osmanlı imperiyasında demokratikləşmə meyllərinin təsirləri altında hay-küy salaraq siyasi məqsədlərə xidmət edən, Osmanlı İmperiyasının parçalanması müqabilində

dövlət yaradacaqlarına əmin olan, Böyük Dövlətlərin güddüyü iqtisadi və siyasi maraqların həyata keçirilməsində alətə çevrilən Eçmiədzin kilsəsinin patriarxları, eləcə də İstanbulda və Osmanlı İmperiyasının digər ərazilərində yerləşən erməni kilsə rəhbərləri «erməni məsələsi» adlı süni bir siyasətin həyata keçirilməsinə çalışmışlar. Bu siyasətin arxasında isə «Böyük Ermənistan» planının gerçəkləşdirilməsi durmuşdur.

## QEYDLƏR


1. Abdullayev M. Rusiyanın Şimali Azerbaycanda Müstemlekeçilik Siyaseti. Azerbaycan Tarihinin Çağdaş Problemleri. Bakı: Hazar Universitesi, 2000, 286 s.
2. ATASE Arşivi, no:1/2, dosya 1580,v.1-3.
3. Akınhay O. Osmanlı İmperatorluğunda Reform. İstanbul: TTK Yayınları. 1997, 342 s.
4. Armenian Studies. İnstitute for Armenian Research. A Quarterly journal of History, Politics and İnternational Realitions. June-Jule-August. Ankara: 2001, issue 2
5. BOA, HNA, Endikatör: T.S, Karton no:13, Dosya no:11, İç no: 70-6
6. BOA, HNA, Endikatör: T.S, Karton no: 13, Dosya no:14, İç no: 70.
7. BOA, HNA, Endikatör: S-III, Karton no:297, Dosya no: 26, İç no:5, Evrak no:129
8. BOA, HNA, Endikatör: S-III, Karton no:297, Dosya no: 26, İç no:5, Evrak no:130
9. BOA, Yıldız Sadaret Hususu, Dosya no: 12-S-1308, İç no: 1, Evrak no: 239/44.
10. BOA, HNA, Endikatör: M. T. Karton no:775, İç no:17, Zarf: 1312.
11. Çayçı A. Türk-Ermeni ilişkilerinde Gerçekler / Tarihi Gelişmeler İçinde Türkiyenin Sorunları Sempozyumu (Dün-Bugün-Yarın). Ankara: 8-9 mart 1990, s.70-81.
12. Çöhçe S. Osmanlı Ermeni toplumunda siyasallaşma çabaları / Ermeni Araştırmaları. Ankara: 2003, sayı-8 / 42-46 .
13. Genelkurmay Başkanlığı ATASE Arşivi, no:1/2, dos.1580.
14. İlter E. Ermeni meselesi. 1780-1880. Ankara: 1988.
15. Kılıc D. Rusyanın Doğu Anadolu Siyasetinde Eçmiyazin Kilisesinin Rolü (1828-1915) / Armenian Studies. İnstitute for Armenian Research. A Quarterly journal of History, Politics and İnternational Realitions. June-Jule-August. Ankara: 2001, issue 2 / p. 30-38.
16. Kurat Y. T. Doğu Anadoluda Ermeni Sorunu (1900-1920). Tarih Boyunca Türklerin Ermeni Toplumu ile İlişkileri Sempozyumu. Ankara: 1985.
17. Osmanlı Tarihi. VII Cilt. İslahat Fermanı Devri (1861-1876). TTK Yayınları, 4-cü Baskı. Ankara-1988, 388 s.
18. Saray M. Ermenistan Yol Ayrımında. Kafkas Araştırmaları II. İstanbul: 1996.
19. Saray M. Türk-Sovyet Münasibetleri ve Ermeni Meselesi / Tarih boyunca Türklerin Ermeni Toplumu ile İlişkileri Sempozyumu. Ankara: 8-12 Ekim 1985, s. 28-33.
20. Süslü A. Ermeniler ve 1915 Tehcir Olayı. Yüzüncü Yıl Universitesi Yayınları. Ankara: 1999, 243 s.
21. Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi. Belge Yayınları (Dün-Bugün-Yarın). İstanbul: 1987, 767 s.

## РОЛЬ АРМЯНСКОЙ ЦЕРКВИ В РАСПРОСТРАНЕНИИ «АРМЯНСКОГО ВОПРОСА»

**З.Дж.АМРАХОВ**

**РЕЗЮМЕ**

В представленной читателям статье говорится о вымышленной политике армянского вопроса, возникшего в Османской Империи во второй половине XIX века.

В статье, основанной на произведениях турецких историков, до широкого круга читателей доводится позиция армянской церкви, её двуличная политика, непосредственная связь с армянами, проживающими в России. В то же время автор постарался внести ясность в тёмные моменты, относительно националистических идей армян, живущих в Османской Империи.

## THE ROLE OF THE ARMENIAN CHURCH IN THE SPREAD OF «THE ARMENIAN QUESTION»

**Z.J.AMRAHOV**

**SUMMARY**

The presented paper deals with the fictious Armenian policy appeared in the Ottoman Empire in the second half of XIX century. The article, grounding on the works of Turkish historians, conveys the position of the Armenian church, its includious policy and strong ties with the Armenians living in Russia to a wide reading mass. The author also highlights the dark moments of the national ideas of Armenians living in the Ottoman Empice.